**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

28 fevral 2026-cı il №08 (9163) www.muallim.edu.az muallim@media.edu.az

## Xocalı faciəsindən

*26 fevral 1992-ci il*



**34 il ötür**

# MEMORİAL KOMPLEKSİN XOCALIDA AÇILIŞI ƏDALƏTİN TƏNTƏNƏSİDİR

"İki il bundan əvvəl Xocalı Soyqırımı Memorial Kompleksinin təməli mənim iştirakımla qoyulmuşdur. Bu gün isə bu Memorial Kompleksin açılışına toplaşmışıq.

Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır.

Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmişdir, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılmış və məhkəmə qarşısına gətirilmişdir. Bax bu, ədalətin tam təntənəsidir.

Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı.




*Prezident İlham Əliyevin Xocalı Soyqırımı Memorialının açılışındakı çıxışından (26 fevral 2026-cı il)*

2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi. Bu gün bu Memorial Kompleksin açılışı, məhz Xocalıda açılışı ədalətin təntənəsidir.

Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir.

O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsəllidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq".




## Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb

## Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı təsdiqlənib

## Uşaqlar rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunacaq

Prezident İlham Əliyev Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti:

Aidiyyəti dövlət orqanlarını (qurumlarını), elmi müəssisə və təşkilatları, mütəxəssisləri və vətəndaş cəmiyyəti institutlarını cəlb etməklə və beynəlxalq təcrübə nəzərə alınmaqla, ölkə ərazisində uşaqların sosial şəbəkələrdəki zərərli məzmun və təsirlərindən qorunmasını, o cümlədən sosial şəbəkələrdə qeydiyyat zamanı yaş məhdudiyyətinin tətbiqini əhatə edən normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Məktəbəhazırlıq qruplarında və ümumi təhsil müəssisələrində mobil və elektron cihazlardan istifadəyə dair qaydaların müəyyən edilməsi və tətbiqi ilə bağlı tədbirlər görülməsini təmin etməlidir.

Məktəbəhazırlıq və ümumi təhsil fənləri üzrə təhsil proqramlarına (kurikulumlara), o cümlədən məzmun standartlarına rəqəmsal savadlılıq, kibertəhlükəsizlik və məsuliyyətli onlayn davranış mövzularının daxil edilməsi, eyni zamanda mediada valideynlər, müəllimlər və uşaqlara yönələn maarifləndirmə proqramlarının hazırlanıb həyata keçirilməsi ilə bağlı tədbirlər görməlidir.

Sosial şəbəkələrdən qanunauyğun istifadənin, belə istifadə zamanı uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi ilə bağlı mütəmadi maarifləndirmə işinin həyata keçirilməsi, o cümlədən uşaqların rəqəmsal rifahına dair elmi tədqiqatlar aparılmasının təşviq edilməsi məqsədilə tədbirlər görməlidir.

Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

## 354 təhsil müəssisəsi "Rəqəmsal məktəb"ə qoşulub

Bax səh.5

## Müəllimlər üçün hazırlanmış "Copilot" nədir?

Bax səh.5

## Türk xalqlarının mədəni inteqrasiyasında tarixi hadisə

Bax səh.6

## Ömürboyu təhsilə investisiya: dünya təcrübəsi

Bax səh.7

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb

**Prezident İlham Əiyev fevralın 27-də Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.**

**Fərmanda qeyd edilir:**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində (bundan sonra — rəqəmsal inkişaf) prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası (bundan sonra — Şura) yaradılsın.

**2.** Şuranın aşağıdakı tərkibi təsdiq edilsin:

**Şuranın sədri**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi —
İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin köməkçisi —
İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikası Prezidentinin sosial -
iqtisadi məsələlər üzrə köməkçisi
Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri
Azərbaycan Respublikasının elm və təhsil naziri
Azərbaycan Respublikasının ədliyyə naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikası Mərkəzi Bankının sədri
Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**3.** Şuranın fəaliyyətinin təşkili məqsədilə Şuranın Katibliyi yaradılsın və Katiblik funksiyasının həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilsin.

**4.** Müəyyən edilsin ki, Şura bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları, elmi müəssisə və təşkilatları cəlb edə, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) və digər maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yarada bilər.

**5.** Şura rəqəmsal inkişaf sahəsi üzrə:

5.1. dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və dövlət orqanları (qurumları) arasında siyasətin əlaqələndirilməsini təmin etsin;

5.2. dövlət orqanları (qurumları) tərəfindən icra olunan layihələrin bu sahədə mövcud strateji məqsədlərə uyğunluğunun təmin edilməsinə nəzarəti həyata keçirsin;

5.3. dövlət orqanlarının (qurumlarının) təklifləri və beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

**6.** Şura fəaliyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

# Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı təsdiqlənib

**"Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına təmin ediləcək.

Rəqəmsal İnkişaf Şurası Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirəcək.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, Fəaliyyət Planında müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması, həmin vəsaitin bölgüsü, büdcə ilinin istənilən vaxtında digər istiqamətlər üzrə xərclənməsi və ilin sonunadək xərclənməməsinin (büdcəyə qaytarılmasının) təsirləri barədə təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməlidir.

Maliyyə Nazirliyi Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində, maliyyə ekspertizası aparılmaqla, zəruri maliyyə vəsaitinin ayrıca sətirlə nəzərdə tutulması üçün müvafiq işlər görməli; Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə razılaşdırmaqla, bu Sərəncamın 4.2-ci bəndində nəzərdə tutulan tədbirləri həyata keçirməlidir.

Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

Sərəncama əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və digər büdcə təşkilatlarına tapşırılır, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Azərbaycan Respublikasının Hesablama Palatasına, Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilir:

Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam icrasını təmin, icrası barədə aylıq məlumatları hər növbəti ayın 10-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim etsinlər.

# Prezident İlham Əliyev Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib








Fevralın 25-də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, bu mərkəzin təməli 1969-cu ildə Lənkəran Texniki Peşə Məktəbi kimi qoyulub. 2018-ci ildə Lerik Peşə Məktəbi və Lənkəran Peşə Liseyi birləşdirilərək onların bazasında Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Mərkəz 2024-cü ildən etibarən Publik Hüquqi Şəxs kimi fəaliyyət göstərir.

Müasir infrastrukturla təmin olunan mərkəzdə tədris, idman, yataqxana, kulinariya təlim korpusları, təlim-qonaq evi, əkinçilik və emalatxana laboratoriyaları, istixana, həmçinin avtotəmir və CNC (dəzgahların kompüterləşdirilmiş idarəetmə sistemi) emalatxanaları yaradılıb. Burada, eyni zamanda, informatika kabinetləri, müasir sinif otaqları, hərbi hazırlıq kabineti, kitabxana, 300 nəfərlik akt zalı və yeməkxana fəaliyyət göstərir. Ərazidə 53 nəfərlik yataqxana binası inşa edilib və yenidənqurmadan sonra korpusların sayı 7-yə çatdırılıb.

2025/2026-cı tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Onların 385-i qadındır. Müəssisədə turizm, kənd təsərrüfatı, sənaye, xidmət, İT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir.

Mərkəzdə yeni maddi-texniki baza formalaşdırılandan sonra bir çox müasir ixtisaslar, o cümlədən elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma, binaların tikintisi və istismarı, elektrik xətlərinin, günəş panellərinin quraşdırılması və təmiri üzrə mütəxəssis və texnik ixtisasları tədris olunur.

Burada tələbələrə ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili pillələri üzrə biliklər verilir. Hazırda mərkəzdə 138 nəfər çalışır.

Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi kadr hazırlığı istiqamətində dövlət və özəl sektoru təmsil edən 30-a yaxın müəssisə ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığa özəl sektorla birgə kadr hazırlığı, mütəxəssislərin tədrisə cəlb olunması, istehsalat təlimləri, ustad dərsləri, həmçinin sosial və innovativ layihələrin icrası daxildir.

# Leyla Əliyeva və Alena Əliyeva Quba şəhərində internat tipli ümumtəhsil məktəbini və STEAM mərkəzini ziyarət ediblər






**Fevralın 24-də Leyla Əliyeva və Alena Əliyeva Quba rayonuna səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Leyla Əliyeva və Alena Əliyeva Quba şəhərində internat tipli ümumtəhsil məktəbini və STEAM mərkəzini ziyarət ediblər.

Əvvəlcə Quba şəhər ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbinə baş çəkilib. Bildirilib ki, burada 79-u oğlan, 35-i qız olmaqla 114 məktəbli təhsil alır. Leyla Əliyeva və Alena Əliyeva internat məktəbində yaradılan şəraitlə tanış olub, uşaqlarla səmimi söhbət edib, onların məşğələ proseslərini izləyib, fotolar çəkdirib və şagirdlərə məktəbli ləvazimatları təqdim ediblər. Məktəbdə şagirdlər tərəfindən hazırlanan mədəni proqram təqdim olunub, şeirlər səsləndirilib, mahnılar ifa olunub.

Daha sonra Quba STEAM mərkəzi ziyarət olunub. Mərkəzlə tanışlıq zamanı xatırladılıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan məktəblərində 2019-cu ildən etibarən STEAM (Science, Technology, Engineering, Art, Mathematics) layihəsinin geniş tətbiqinə başlanılıb. Qeyd olunub ki, STEAM mərkəzi Qubada 2021-ci ildən fəaliyyət göstərir və bütün yaş qrupları üçün nəzərdə tutulub. Leyla Əliyeva və Alena Əliyeva mərkəzdə yaradılan şəraitlə yaxından tanış olub, şagirdlərlə səmimi söhbət aparıb, onların burada əldə etdikləri bilik və bacarıqların praktiki tətbiqi ilə maraqlanıblar.

Sonda uşaqlar və məktəbin kollektivi ilə xatirə şəkilləri çəkdirilib.





# Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib



**Fevralın 26-da Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar "Ana harayı" abidəsini ziyarət edib. Xocalı şəhidlərinin xatirəsinə ucaldılmış abidənin önünə güllər düzülüb və faciə qurbanları dərin ehtiramla yad olunub.**




# Xankəndidə Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb




**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Xankəndi şəhərində universitetin müəllim-tələbə heyətinin və media nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri təşkil edilib.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər güllər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva tədbirdə çıxış edərək, Xocalı faciəsinin Azərbaycan xalqının tarixi yaddaşında silinməz iz buraxdığını, beynəlxalq humanitar hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması ilə müşayiət olunan insanlığa qarşı ağır cinayət olduğunu bildirib.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov Xocalı soyqırımının milli yaddaşımızda və dövlətçilik şüurumuzda mühüm yer tutan faciə olduğunu bildirib. Qeyd edib ki, Xankəndidə fəaliyyət göstərən Qarabağ Universitetində bu hadisənin anılması rəmzi məna daşıyır.

Rektor vurğulayıb ki, universitetin əsas prioritetlərindən biri tələbələrin tarixi həqiqətlər və vətənpərvərlik ruhunda formalaşdırılmasıdır. O bildirib ki, ali təhsil ocağı regionun elmi, sosial və intellektual inkişafına töhfə verən mühüm mərkəz kimi fəaliyyət göstərir.

Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmovun bacısı, Xocalı hadisələrinin şahidi Füqurə Rüstəmova çıxış edərək, faciə gecəsi yaşadıqlarını bölüşüb, gəncləri tarixi unutmamağa və həqiqətləri gələcək nəsillərə çatdırmağa çağırıb.

Anım tədbirində Xocalı soyqırımına həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonda Ombudsmanın Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı bəyanatı səsləndirilib.

# Şahin Bayramov: Xocalıda soyqırımı qurbanlarının anılması dövlətimizin gücünün və qüdrətinin bariz göstəricisidir

Xocalı soyqırımının törədilməsindən 34 il ötür. XX əsrin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımı Azərbaycan xalqının yaddaşında silinməz iz buraxıb, insanlıq adına qara ləkə kimi tarixə həkk olunub. Zaman keçdikcə Xocalı həqiqətləri daha aydın dərk olunur, bu hadisənin insanlığa qarşı törədilmiş ağır cinayət olduğu tarixi və hüquqi müstəvidə daha da möhkəmlənir.

Bu fikirlər Qarabağ Universitetinin rektoru Şahin Bayramovun Xocalı faciəsinin 34-cü ildönümü ilə bağlı AZƏRTAC-a təqdim etdiyi yazıda yer alıb. Yazını təqdim edirik.

1992-ci ilin fevralında Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş bu vəhşilik nəticəsində yüzlərlə günahsız insan - qadınlar, uşaqlar və qocalar amansızlıqla qətlə yetirilib, minlərlə soydaşımız ağır işgəncələrə məruz qalıb. Bu faciə yalnız Azərbaycan xalqına deyil, bütövlükdə bəşəriyyətə qarşı törədilmiş cinayətdir.

Xocalı soyqırımına ilk siyasi və hüquqi qiymətin verilməsi müasir Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz əbədiyaşar liderimizin prinsipial mövqeyi nəticəsində bu faciəyə obyektiv hüquqi-siyasi qiymət verilib, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün möhkəm təməl yaradılıb.

Sonrakı dövrlərdə Azərbaycan dövlətinin ardıcıl siyasəti, eləcə də Heydər Əliyev Fondunun təşəbbüs və fəaliyyəti sayəsində Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması istiqamətində misilsiz işlər görülüb. Müxtəlif ölkələrdə təşkil olunan konfranslar, anım tədbirləri, sərgilər və informasiya kampaniyaları bu həqiqətlərin qlobal miqyasda yayılmasına əhəmiyyətli töhfə verib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı ilə qazanılmış tarixi Zəfər nəticəsində torpaqlarımız, o cümlədən doğma Xocalımız işğaldan azad edilib, ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunub. Bu Zəfər, eyni zamanda, Xocalı qurbanları da daxil olmaqla, bütün şəhidlərimizin qisasının alındığını bütün dünyaya nümayiş etdirdi. Soyqırımı cinayətlərində iştirak etmiş bir qrup erməni separatçısının Azərbaycanda məhkəmə qarşısına çıxarılması isə ədalətin bərpasının və dövlət iradəsinin təntənəsidir.

Bu gün Xocalıda soyqırımı qurbanlarının əziz xatirəsinin ehtiramla anılması dövlətimizin gücünün və qüdrətinin bariz göstəricisidir. Bu, eyni zamanda, hər birimizə Xocalı soyqırımına fərqli yanaşma ilə, tarixi Zəfərə aparan yolda sınmaz iradə və milli qürur nümayiş etdirmiş xalqın mənəvi dirənişinin simvolu kimi baxmaq imkanı yaradır.

Tarixən xalqımıza qarşı törədilmiş qanlı cinayətlər, o cümlədən Xocalı soyqırımı heç zaman unudulmayacaq. Bu yaddaş milli kimliyimizin ayrılmaz hissəsinə və gələcək nəsillər qarşısında mənəvi məsuliyyətimizə çevrilib. Azad edilmiş torpaqlarda fəaliyyət göstərən ali təhsil müəssisəsi olaraq Qarabağ Universitetinin əsas missiyalarından biri gənc nəslə bu tarixi həqiqətləri çatdırmaq, onların milli yaddaşını möhkəmləndirmək və vətənpərvərlik ruhunda formalaşmasına töhfə verməkdir. Universitetimiz Xocalı həqiqətlərinin beynəlxalq akademik müstəvidə də geniş yayılması istiqamətində fəaliyyətləri diqqət mərkəzində saxlayır.

Bir daha Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini dərin ehtiramla yad edir, uca Allahdan onlara rəhmət diləyirik.

**Xocalıya qar yağıb, hər tərəf ağappaqdır, neçə gündür yoliz buz bağlayıb. Hər sabah evimin qarşısından keçib məktəbə gedən uşaqlar buzun üstünə yıxılmasınlar deyə bir-birilərinin əlindən tutur, həm də qarın sevincini yaşayırlar. Onlar məktəbə gedir, mən isə xəyallarıma, həmin məktəbdə müəllim işlədiyim vaxtlara, şəhid şagirdlərimin ruhu ilə söhbətə.**

# Bugünkü dərsimiz XOCALI...



## Xocalıdan uşaq kimi çıxdılar, müəllim kimi qayıtdılar

Onlar da iqlimi sərt keçən Xocalının qış sabahlarında bir-birinin əlindən tutub məktəbə gedər, qartopu oynayar, "qar adam" düzəldər, zəngin səsini eşidən kimi qarla oynamaqdan qıpqırmızı olmuş əllərini hovuraraq qaçıb sinfə doluşardılar. Hələ də gözümün önündə və yaddaşımda onların məsum üzləri və səsləri qalıb.

Bir zamanlar müəllimi olduğum doğma məktəbimə indi müxbir kimi gəlmişəm. Dərs yenicə başlayıb deyə, bitməsini gözləyirəm. Nəhayət, zəng çalınır, uşaqlar bir göz qırpımında sinif otaqlarını tərk edərək məktəbin həyətində qar topu oynamağa tələsirlər.

**"Xocalıdan bacı-qardaşımla çıxsaq da..."**

Mən isə o gecəni iliklərinə qədər yaşamış Ruhiyyə müəllimlə söhbət edirəm. Babası vaxtilə Cənubi Azərbaycanda şah rejimindən qaçaraq Şimali Azərbaycana pənah gətirmişdi. Tale onun yolunu Xocalıya salmışdı. Ağayar dayı kəndimizin xeyir-şərində yaxından iştirak edərdi. Ağır sınaqları bitməyən ailə gənc oğlunu, qızını torpağa tapşırmışdı. Xocalının başını qara buludlar alanda o da silaha sarılmışdı. O gecə bu ailəni tale yenə də sınağa çəkdi. Oğlu Malik həyat yoldaşı ilə Kətik meşəsinə üz tutanda ürəyində min bir arzu diləyi vardı, düşmən əlinə keçməmək.

Ruhiyyə müəllim kövrələ-kövrələ o günlərə qayıdır: "Xocalıdan bacı-qardaşımla çıxsaq da ata-anamız üçün çox darıxırdıq. Mən bacı-qardaşımdan böyük olduğumdan vəziyyətin ağır olduğunu anlayırdım. Xocalı soyqırımı baş verən gecə gözümə yuxu getmədi. Sən demə, o gecə Xocalıda yüzlərlə insan qətlə yetirilmişdi. Atam, anam, xalam və iki oğlu dəstədən ayrı düşərək, yolu azırlar, atam döyüşərək ağır yaralanır. Atamın son nəfəsinə kimi tək buraxmırlar. Aclıqdan, susuzluqdan taqətdən düşürlər. Meşədəki quru giləmeyvələri və qar yeyərək 15 gündən sonra Ağdama gəlib çıxa bilirlər. Atamın nəşini sonra tapıb Ağdamın Uzundərə qəbiristanlığında dəfn etdik. Amma hər fevral gələndə göz yaşlarımız selə dönür. O gecəni heç birimiz unutmayacağıq".







**Yolunu qürurla davam etdirən şagirdi Afilə müəllimini belə xatırlayır**

Afilə müəllimin şagirdi olmuş Samirə Məmmədova əziz müəlliminin yolunu qürurla davam etdirdiyini deyir. Xocalı şəhər 1 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimidir. Söhbətimiz kədərli notlar üzərində davam edir. "Afilə müəllimin üzündən təbəssüm əskik olmazdı. Şagirdlərini sevib oxşayardı. Uzun hörüklərim vardı mənim, şəfqətlə sığal çəkib, xoş sözlər söyləyərdi, onu heç vaxt unutmaram",- deyən Samirə Məmmədovanın gözləri yaşarır.

Afilə müəllimə o gecə təklülə tüfəngini çiyninə aşırıb aylardan bəri iflic olan həyat yoldaşını oğlanları ilə köməkləşib xərəkdə məktəbin "kömürxana" deyilən yerinə qədər gətirir. Oradan da camaata qoşulub Qarqar çayını keçərək, Kətik meşəsinə doğru gedirlər. Qar-şaxta iliklərini dondururdu. Meşədə Afilə müəllim "kimdə ürək dərmanı var", — deyə soruşur. Bu, onun son sözü olur. Bununla da, Afilə müəllimdən, həyat yoldaşı Vaqifdən, oğlanları Azərdən, Ceyhundan və Niyaməddindən xəbər çıxmadı. Ailənin taleyindən hələ də bir xəbər yoxdur.

Zəminə Məmmədova uşaqlara Azərbaycan dili və ədəbiyyat fənnini tədris edir. O gecə qardaşı Kamilin əsir düşməsi xəbərini eşidəndə dünyası qaralır. Atası Əmir dayı ilə Milli Ordunun əsgəri olan qardaşı Kamil son güllələrinə kimi döyüşür, digər xocalılar kimi əsir düşürlər. Əmir dayı əsirlikdə cəhənnəmi görüb qayıtsa da Kamili vermirlər. Bu günə kimi Zəminə müəllim qardaşının gələcəyi ümidi ilə yaşayır.

**"O gecə atamı itirdim"**

Məktəbin direktoru Nəvai Həsənovun da acı bir həyat hekayəsi var: "O gecə atamı itirdim, onda kiçik idim. Atasızlıq çox ağır dərddir, kiçik yaşında olanda lap çətindir. Atamla yanaşı, Günəş nənəm, Məxmər və Qətibə bibilərim də o faciənin qurbanları oldular. Atam son dəfə anamı Qarqar çayını keçirərək deyir ki, "get, uşaqlarımı sənə tapşırıram, onlardan muğayat ol". Atam yenidən Xocalıya qayıdır, anasını, bacılarını axtarır. Amma bu ölüm vadisində ermənilər bacısı Qətibəni girov götürürlər. O, qeyrətli Xocalı qızı son ana kimi onların qarşısında əyilmir. Hələ də onlardan xəbər-ətər yoxdur. Gözlər yolda, qəlb intizardadır".

Tarix müəllimi Anar Əbdülov Xocalıya yeni köçüb. Soyqırımı zamanı azyaşlı olsa da, dəhşətli gecə ürəyinə, qəlbinə ağır izlər qoyub. Vətən müharibəsi iştirakçısı Əli babasını itirib. Nənəsinin ağılı-bayatılı səsi ilə böyüyüb.

Kompüterin arxasında oturan isə Azadə müəllimdir, ingilis dilindən dərs deyir. Bu dili şagirdlərinə səylə öyrədir ki, Xocalı uşaqları bu faciəni dünyaya çatdırsınlar.

Qeyd edək ki, Xocalı məktəbi 2024-cü ildə 33 şagirdlə dərsə başlasa da indi onların sayı 264 nəfərə çatıb. Təzəbinə kəndi korpusunda 88, əsas binada isə 176 şagird təhsil alır.

**Səriyyə MÜSLÜMQIZI**

# AzMİU-nun əməkdaşlarına yüksək dövlət mükafatları təqdim olunub





Azərbaycanın insan kapitalının formalaşmasında mühüm rol oynadığını bildirib.

Qeyd olunub ki, AzMİU təhsil və tədqiqat sahəsində fərqlənən ali təhsil müəssisəsi kimi ölkədə mühəndislik, memarlıq və şəhərsalma istiqamətlərinin inkişafına mühüm töhfələr verir.

Tədbirdə çıxış edən AzMİU-nun rektoru Gülçöhrə Məmmədova vurğulayıb ki, hazırda universitetin əsas hədəflərindən biri tədqiqat universiteti modelinin daha da gücləndirilməsidir. Bildirilib ki, rəqəmsal çağırışlar, süni intellekt və innovativ texnologiyaların tədris və tədqiqat prosesinə inteqrasiyası AzMİU-nun strateji inkişaf xəttinin mühüm istiqamətləridir.

Sonra elm və təhsil naziri tərəfindən dövlət mükafatları təqdim olunub.

Tədbirin sonunda xatirə fotosu çəkdirilib.



**Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) 50 illik yubileyi münasibətilə bu təhsil müəssisəsinin bir qrup əməkdaşına dövlət mükafatlarının təqdim olunması mərasimi keçirilib.**

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə dövlət mükafatına layiq görülən universitet əməkdaşlarını təbrik edib, bu yüksək dəyərə görə təhsil ictimaiyyəti adından ölkə başçısına təşəkkürünü ifadə edib.

Nazir çıxışında AzMİU-nun keçdiyi inkişaf yolunu xatırladıb, bu universitetin məzunlarının həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə qazandıqları uğurlardan bəhs edərək universitetin elmi-pedaqoji potensialının

# Elm və təhsil naziri LDU-nun Baytarlıq klinikası ilə tanış olub



## Emin Əmrullayev universitetin “Baytarlıq” ixtisasında təhsil alan tələbələr və müəllim heyəti ilə də görüşüb

**Elm və təhsil naziri Emin Əmrullayev Lənkəran Dövlət Universitetinin nəzdində yaradılmış Baytarlıq klinikası ilə tanış olub.**

Lənkəran Dövlət Universitetinin rektoru Natiq İbrahimov klinikada yaradılmış şərait, heyvanların müayinəsi və müalicəsi üçün nəzərdə tutulmuş kabinetlər, laboratoriyalar və müasir tibbi avadanlıqlar barədə nazirə ətraflı məlumat verib. Bildirib ki, klinika həm regionda ev və çöl (vəhşi) heyvanlarının sağlamlığının qorunmasına xidmət edir, həm də universitetin “Baytarlıq” ixtisasında təhsil alan tələbələr üçün praktiki vərdişlərin formalaşdırılması baxımından mühüm tədris bazası rolunu oynayır.

Elm və təhsil naziri Emin Əmrullayev universitetin “Baytarlıq” ixtisasında təhsil alan tələbələr və müəllim heyəti ilə də görüşüb, onların fikirlərini dinləyib, baytarlıq sahəsində kadr hazırlığı istiqamətində həyata keçirilən işlərlə yaxından tanış olub, tövsiyələrini verib.

# Şagirdlərin təqdim etdikləri layihələrin əhatə dairəsinin genişləndirilməsi vacibdir

## Elm və təhsil naziri Sumqayıtda təhsil müəssisəsində olub

**Fevralın 27-də elm və təhsil naziri Emin Əmrullayev Sumqayıt şəhərində yerləşən İsmət Qayıbov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbində olub.**

Məlumat verilib ki, təhsil müəssisəsi 2021-ci ildə əsaslı təmir olunaraq istifadəyə verilib. Hazırda 3008 şagirdin təhsil aldığı məktəbdə 135 nəfər pedaqoji, 39 nəfər isə texniki işçi çalışır.

Sinif otaqlarına baxış zamanı nazir STEAM və “Rəqəmsal bacarıqlar” layihələrinin tədris prosesi ilə yaxından maraqlanıb, dərslərin təşkilini izləyib və şagirdlərlə fikir mübadiləsi aparıb. Şagirdlərin təqdim etdikləri layihə və praktiki işlərlə tanış olan nazir sözügedən layihələrin əhatə dairəsinin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Səfər çərçivəsində elm və təhsil naziri təhsil müəssisəsində yaradılmış, imtahanların təşkili üçün nəzərdə tutulan MİQ mərkəzinə də baxış keçirib. Nazir həmçinin məktəbin kitabxanasındakı mövcud şəraitlə tanış olub, şagirdlərin mütaliə vərdişlərinin formalaşdırılması və oxu mədəniyyətinin təşviqinin təhsil prosesinin ayrılmaz hissəsi olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, məktəblə tanışlıq zamanı Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov və Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva da iştirak ediblər.





# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Sumqayıtda vətəndaşları qəbul edib

**Fevralın 27-də elm və təhsil naziri Emin Əmrullayev Sumqayıt şəhərində vətəndaş qəbulu keçirib.**

Qəbulda Sumqayıt, Abşeron, Xızı və Qubadlı sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar iş yerinin dəyişdirilməsi, tələbə köçürülməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.



# Emin Əmrullayev Macarıstanın və Türkiyənin ölkəmizdəki səfirləri ilə görüşüb

**Fevralın 26-da elm və təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün və Türkiyə Maarif Vəqfinin İdarə Heyətinin nümayəndələri ilə görüşüb.**

Görüş çərçivəsində təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***

Fevralın 26-da elm və təhsil naziri Emin Əmrullayev Macarıstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Tamas Torma ilə görüşüb.

Görüş çərçivəsində Macarıstan ilə elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.






## Elm və təhsil sahəsində əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib

# Firudin Qurbanov AMEA-nın Ümumi yığıncağında iştirak edib



## Nazir müavini: "Təhsil, tədqiqat və innovasiyalar arasında əlaqələrin gücləndirilməsi əsas vəzifələrdəndir"



Fevralın 25-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ümumi yığıncağı keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin sədr müavini Rafael Hüseynov, Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Anar İsgəndərov, Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, AMEA-nın Rəyasət Heyətinin üzvləri, Akademiyanın həqiqi və müxbir üzvləri, AMEA-nın və əhatə etdiyi elmi müəssisə və təşkilatların direktorları, ali təhsil müəssisələrinin rektorları, respublika üzrə 2025-ci il ərzində əldə edilmiş mühüm elmi nəticələrin müəllifləri iştirak ediblər.

Əvvəlcə 2025-ci ilin yekunlarına həsr olunmuş sərgiyə baxış olub.

İclası AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq yığıncağın gündəliyindəki məsələləri diqqətə çatdırıb.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, hesabat ilində dünyasını dəyişmiş müxbir üzvlərin, həmçinin şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli "Azərbaycanşünaslıqdan rəqəmsallaşmaya və beynəlxalq əlaqələrə" mövzusunda məruzə ilə çıxış edib.

Daha sonra çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, bu gün elmi araşdırmaları, yaradıcı cəmiyyətləri, innovativ fəaliyyətləri yüksək olan ölkələr böyük inkişafa nail olublar. Nazir müavini xatırladıb ki, AMEA-nın 80 illik yubileyindəki nitqində Prezident İlham Əliyev süni intellekt, rəqəmsal texnologiyaların inkişafı və kibertəhlükəsizliyi ölkəmizin gələcək prioritet istiqamətləri kimi müəyyən edib, bunun üçün elmi potensialın səfərbər edilməsinin vacibliyini vurğulayıb.

Dövlət başçısının müvafiq Fərmanından irəli gələrək elm və təhsil sahəsində aparılan struktur islahatlarından danışan nazir müavini optimallaşma nəticəsində hazırda 15 elmi müəssisənin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərdiyini, əsas məqsədin təhsil, elm və istehsalat arasında inteqrasiyanın təmin edilməsi olduğunu bildirib.

Firudin Qurbanov diqqətə çatdırıb ki, qəbul olunan "Azərbaycan Respublikasının 2025—2028-ci illər üçün süni intellekt Strategiyası" qarşıda mühüm vəzifələr müəyyənləşdirir, bu istiqamətdə yeni layihələr həyata keçirilir, təhsil sistemində rəqəmsal transformasiyanın sürətləndirilməsi və süni intellekt texnologiyalarının tətbiqinin genişləndirilməsi nəzərdə tutulur.

Nazir müavini qeyd edib ki, təhsil, tədqiqat və innovasiyalar arasında əlaqələrin bundan sonra da gücləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir və bu istiqamətdə sistemli tədbirlər davam etdiriləcək.

Daha sonra AMEA-nın akademik-katibi akademik Arif Həşimovun "AMEA-nın, elmi təşkilatların və ali təhsil müəssisələrinin 2025-ci ildəki elmi-təşkilati fəaliyyəti haqqında" məruzəsi dinlənilib.

Tədbirdə, həmçinin Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, AMEA-nın müşaviri Yaqub Mahmudov çıxış ediblər. Həmçinin akademik Əli Abbasovun "Rəqəmsal elm və süni intellekt", AMEA-nın Gənclər Akademiyasının sədri Elmir Babayevin "Gənc Alimlər Şurasından — Gənclər Akademiyasına" və AMEA-nın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri Sərxan Xavərinin "AMEA-nın tabeliyində olan elmi-tədqiqat müəssisələrinin elmmetrik reytinq göstəriciləri" mövzularında məruzələri dinlənilib.

Sonda AMEA-nın Ümumi yığıncağının qərarı səsləndirilib.

# Nazir müavini Xırdalanda vətəndaşları qəbul edib

**Fevralın 25-də elm və təhsil nazirinin müavini İdris İsayev Xırdalan şəhərində vətəndaşları qəbul edib.**

**Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.**

**Qəbulda Sumqayıt, Abşeron, Xızı, Qubadlı və Zəngilan sakinləri iştirak ediblər.**



Vətəndaşların müraciətləri əsasən direktorların işə qəbulu, iş yerinin dəyişdirilməsi, ali təhsil və digər məsələlərlə bağlı olub.

Nazir müavini İdris İsayev qəbula yazılmış vətəndaşları dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verib.

# Həsən Həsənli Türkiyənin milli təhsil nazirinin müavini ilə görüşüb

**Fevralın 27-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Türkiyə Respublikasının milli təhsil nazirinin müavini Celile Eren Ökten ilə görüşüb.**

Görüş çərçivəsində ümumi və peşə təhsili sahələrində cari əməkdaşlıq və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# Təhsilin rəqəmsallaşdırılması

## Media nümayəndələri üçün brifinq keçirilib






**Fevralın 24-də Elm və Təhsil Nazirliyinin tabeliyindəki Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin (TSİİ) rəisi Vüsal Xanlarov media nümayəndələri üçün brifinq keçirib.**

Brifinqdə "Təhsilin rəqəmsallaşdırılması" mövzusunda geniş təqdimatla çıxış edən Vüsal Xanlarov bildirib ki, təhsilin rəqəmsallaşdırılması infrastrukturun gücləndirilməsi və vahid rəqəmsal həllərin tətbiqi əsasında həyata keçirilir. Bu prosesin əsas məqsədi isə təhlükəsiz və effektiv rəqəmsal mühitin yaradılmasıdır.

Çıxış zamanı Bakı şəhərində istifadəyə verilən "Rəqəmsal məktəb" platforması barədə danışılıb və qeyd olunub ki, bu platforma tədrisin idarə olunmasını, monitorinqini və hesabatlılığını vahid rəqəmsal mühitdə təmin edir.

Brifinqdə süni intellektin təhsildə tətbiqi imkanlarına da toxunulub. Bildirilib ki, "Microsoft" və Elm və Təhsil Nazirliyinin birgə təşəbbüsü ilə müəllimlərə dəstək məqsədilə hazırlanmış "Copilot" tətbiqi təhsil mühitinin tələblərinə uyğunlaşdırılmış, kurikulum əsaslı və yerli təhsil ehtiyaclarına uyğun fəaliyyət göstərən süni intellekt alətidir.

Eyni zamanda brifinqdə şagirdlər üçün nəzərdə tutulmuş süni intellekt əsaslı təhsil köməkçisi, "Müəllim" mobil tətbiqi, elektron təhsil sənədləri, Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunan təhsil xidmətləri və digər aidiyyəti istiqamətlərdən də danışılıb.

Brifinq çərçivəsində vurğulanıb ki, təhsilin rəqəmsallaşdırılması prosesi mərhələli şəkildə davam etdirilir və əsas prioritet rəqəmsal infrastrukturun genişləndirilməsi, xidmətlərin əlçatanlığının artırılması və innovativ texnologiyaların təhsil sisteminə inteqrasiyasıdır.

Brifinqdə media nümayəndələrinin çoxsaylı sualları cavablandırılıb.

# Rəqəmsallaşma statistik rəqəmlərdə

## Şagirdlərin 82 faizi genişzolaqlı internetlə əhatə olunub

**Azərbaycanda təhsil sisteminin rəqəmsallaşdırılması istiqamətində görülən işlər nəticəsində internet infrastrukturu əhəmiyyətli dərəcədə gücləndirilib. Son illər ərzində ümumi təhsil müəssisələrinin genişzolaqlı internetə qoşulmasında ciddi artım qeydə alınıb.**



2017-ci ildə cəmi 171 məktəb genişzolaqlı internetlə təmin olunmuşdusa, bu göstərici 2021-ci ildə 1 159-a, 2023-cü ildə 1 737-yə yüksəlib. 2024-cü ildə kəskin artım qeydə alınaraq 2 906 məktəb genişzolaqlı şəbəkəyə qoşulub. 2026-cı ildə isə bu rəqəm 2 957-yə çatıb.

Eyni dövrdə ADSL texnologiyasından istifadə edən məktəblərin sayı azalıb. 2017-ci ildə 1 672 məktəb ADSL bağlantısından istifadə edirdisə, 2023-cü ildə bu göstərici 999-a düşüb. 2025-ci ildə 49, 2026-cı ildə isə cəmi 35 məktəbdə ADSL bağlantısı qalıb ki, bu da köhnə texnologiyaların mərhələli şəkildə ləğv edildiyini göstərir.

Simsiz internet bağlantısı üzrə də dinamika müşahidə olunub. 2017-ci ildə 439 məktəb simsiz şəbəkə ilə təmin edilmişdisə, 2021—2022-ci illərdə bu göstərici 1964 və 2069-a qədər yüksəlib. Son illərdə isə genişzolaqlı bağlantının üstünlük qazanması fonunda simsiz qoşulmaların sayı nisbətən azalıb və 2026-cı ildə 1222 təşkil edib.

Hazırda qoşulma növləri üzrə şagirdlərin 82 faizi genişzolaqlı internet, 18 faizi isə digər qoşulma vasitələri ilə əhatə olunur. Bununla yanaşı, illər üzrə orta internet trafiki də artım tendensiyası göstərir. 2018—2019-cu illərdə 10 Gb/s olan orta trafik həcmi 2021-ci ildə 15 Gb/s-ə, 2022-ci ildə 26 Gb/s-ə yüksəlib. Artım davam edərək 2025-ci ildə 41 Gb/s, 2026-cı ildə isə 47 Gb/s səviyyəsinə çatıb.

## Müəllimlər üçün hazırlanmış "Copilot" nədir?

**"Microsoft" və Elm və Təhsil Nazirliyinin birgə təşəbbüsü ilə müəllimlərə dəstək üçün hazırlanmış "Copilot" tətbiqi təhsil mühitinin tələblərinə uyğunlaşdırılmış süni intellekt alətidir.**

**"Rəqəmsal məktəb" platformasında təqdim edilən "Copilot" kurikulum əsaslıdır və yerli təhsil ehtiyacları nəzərə alınmaqla hazırlanıb.**

**Bu texnologiya tədris materiallarının hazırlanmasına, mürəkkəb mətnlərin təhlilinə, dərslərin planlaşdırılmasına, ideyaların strukturlaşdırılmasına, rəqəmsal məzmunun yaradılmasına imkan verir.**



# 354 təhsil müəssisəsi "Rəqəmsal məktəb"ə qoşulub

**"Rəqəmsal məktəb" platforması 543 mindən çox şagirdi əhatə edir.**

Təhsilin rəqəmsallaşdırılması istiqamətində həyata keçirilən layihələr çərçivəsində "Rəqəmsal məktəb" platforması 2025-ci ilin sentyabr ayından Bakı şəhərində tətbiq edilir.

Platforma hazırda paytaxt üzrə 354 ümumi təhsil müəssisəsini əhatə edir. "Rəqəmsal məktəb" vasitəsilə 543 255 şagird, 360 709 valideyn və 44 552 pedaqoji heyət üzvü rəqəmsal sistemə qoşulub. Platformada ümumilikdə 9 235 rəqəmsal məzmun yerləşdirilib.

Layihə çərçivəsində I—XI siniflər üzrə 9 235 tədris videosu platformaya inteqrasiya olunub.

Videomateriallar ümumi təhsil proqramına uyğun şəkildə hazırlanıb və şagirdlərin dərs materiallarına əlçatanlığını artırmağa xidmət edir. Bununla yanaşı, "Müəllim" mobil tətbiqi də istifadəyə verilib. Tətbiq müəllimlərin gündəlik işini asanlaşdırmaq, təhsil prosesində rəqəmsal idarəetməni təmin etmək məqsədilə hazırlanmış rəsmi platformadır. Sistem vasitəsilə müəllimlər dərs prosesini daha operativ şəkildə idarə edə, məlumat mübadiləsini sürətləndirə bilirlər.

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY – 100

**1926-cı ilin fevralında Bakı şəhəri təkcə regional miqyasda deyil, bütövlükdə türk dünyasının elmi və mədəni xəritəsində simvolik bir mərkəzə çevrildi. Birinci Türkoloji Qurultay - elmi ədəbiyyatda "Birinci Türkoloji Qurultay", "Bakı Türkoloji Qurultayı", "1926 Bakı Qurultayı" adları ilə də tanınan bu mötəbər tədbir, türk xalqlarının dilləri, mədəni irsi və elmi əməkdaşlıq perspektivləri üzərində düşünən alimləri ilk dəfə bu qədər geniş və sistemli şəkildə bir araya gətirdi. Qeyd edilməlidir ki, Qurultayın rəsmi və orijinal adı Azərbaycan dilində nəşr olunmuş proqramın cildində "Birinci Ümumittifaq Türkoloji Qurultay" kimi göstərilmişdir.**



**Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, Türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.**

## Türk xalqlarının mədəni inteqrasiyasında tarixi hadisə

### (Türk Dünyasında elmi birlik yolunda 100 il: 1926-2026)



**Elçin İBRAHİMOV,
Qarabağ Universiteti Elm şöbəsinin müdiri, filologiya elmləri doktoru**

**Türkologiyada multidisiplinar yanaşmanın əsasları**

Qurultay çərçivəsində türk dillərinin elmi müzakirəsi yeddi əsas problem sahəsi üzrə aparılmış və bu istiqamətlərdə müvafiq qərarlar qəbul edilmişdir: əlifba məsələsi, imla və orfoqrafiya problemləri, terminologiya, tədris və metodika məsələləri, qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri, türk dillərinin ədəbi dil məsələləri, o cümlədən ortaq ədəbi dil problemi, həmçinin ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi məsələləri.

Bu müzakirələr türk dünyasında elmi birlik ideyasının formalaşmasında mühüm dönüş nöqtəsi olmuşdur. Türkologiyanın inkişaf istiqamətini müəyyən edən, türk xalqlarını ortaq mədəniyyət və dil platformasında birləşdirən bu intellektual təşəbbüs - 1926-cı il fevralın 26-dan martın 6-dək Bakı şəhərində İsmailiyyə sarayında keçirilmiş Birinci Türkoloji Qurultay - XX əsrdə türk xalqlarının mədəni inteqrasiyasında yeni bir mərhələnin əsasını qoymuş, geniş coğrafiyada yaşayan müxtəlif türk toplumları üçün taleyüklü məsələlərin müzakirə edildiyi və elmi əsaslandırılmış həll yollarının formalaşdırıldığı tarixi bir tribuna rolunu oynamışdır.

Bu Qurultay təkcə Azərbaycan elmi mühitində deyil, bütövlükdə Türk dünyasında türkologiya elminin sistemli inkişaf mərhələsinin formalaşmasında mühüm rol oynamış, türk xalqlarının dillərinin, ədəbiyyatının, etnoqrafiyasının və tarixi-mədəni irsinin elmi əsaslarla öyrənilməsi üçün möhkəm nəzəri və praktik baza yaratmışdır. Qurultay yalnız əlifba və orfoqrafiya məsələləri ilə məhdudlaşmamış, elmi terminologiyanın sistemləşdirilməsi, türk dillərinin orfoqrafik tədqiqi, ölkəşünaslıq, arxeoloji və etnoqrafik araşdırmalar kimi sahələri də əhatə etməklə türkologiyada multidisiplinar yanaşmanın əsasını qoymuşdur.

**Ortaq əlifba və dil məsələləri**

Bu gün Birinci Türkoloji Qurultayın keçirilməsindən bir əsr ötür. Tarixi sınaqlardan keçmiş bu ideyalar çağdaş dövrdə yenidən aktuallıq qazanmaqdadır. Qloballaşmanın artan təsiri fonunda türk xalqları arasında ortaq əlifba və dil məsələlərinin həlli həm elmi və akademik birliyin güclənməsinə, həm də milli-mənəvi bütövlüyün bərpasına xidmət edən mühüm amillərdən biri kimi çıxış edir.

Birinci Bakı Türkoloji Qurultayının tarixi və elmi əhəmiyyətini daha dolğun təsəvvür etmək üçün bir sıra faktlar xüsusilə diqqətəlayiqdir. Qurultayda ümumilikdə 12 ölkədən: Azərbaycan, Türkiyə, Almaniya, Macarıstan, Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Gürcüstan və Ermənistandan nümayəndələr iştirak etmişdir. Bununla yanaşı, Krım, Tatarıstan, Başqırdıstan, Dağıstan, Çuvaşiya, Kalmıkiya, Kabarda-Balkar, İnquşetiya, Noqay ordası, Çeçenistan və digər bölgələrdən müxtəlif türk toplumlarını və muxtar qurumları təmsil edən nümayəndələr qatılmışdır.

**134 iştirakçı, 17 iclas**

Qurultayda ümumilikdə 134 nəfər iştirak etmiş, 17 iclas keçirilmişdir. Bu iclaslarda türk xalqlarının, bütövlükdə Türk dünyasının dili, tarixi, etnogenezi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyəti ilə bağlı 38 elmi məruzə təqdim olunmuşdur. Qurultaya Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlu sədrlik etmiş, Rəyasət Heyətinə isə həm yerli, həm də xarici nüfuzlu alimlər seçilmişdir. Onların sırasında Azərbaycandan Ruhulla Axundov və Həbib Cəbiyev, tanınmış şərqşünas və tarixçi alim akademik Vasili Bartold, akademik Sergey Oldenburq, Avropa alim heyətinin nümayəndəsi professor Teodor Menzel, RSFSR Xalq Maarif Nazirliyindən İosif Naqovitsin, professor Bəkir Çobanzadə, SSRİ Elmlər Akademiyasının müxbir üzvü Aleksandr Samoyloviç, Qazaxıstandan Əhməd Baytursun, Yakutiyadan İsidor Baraxov, Şərqşünaslıq Assosiasiyasından İlya Borozdin və Mixail Pavloviç, Tatarıstandan Qalimcan İbrahimov, Başqırdıstandan Kərim İdelqujin, Türkiyədən SSRİ EA-nın xarici müxbir üzvü professor Fuad Köprülüzadə, Dağıstandan Cəlaləddin Qorxmazov, Özbəkistandan Rəhim İnoqamov, Qırğızıstandan Qasım Tınıstanov, Türkmənistandan Bekki Berdiyev, Krımdan Hüseyn Ağçokraklı və Həbibulla Odabaş, Şimali Qafqazdan isə Umar Əliyev kimi tanınmış alim və ictimai xadimlər yer almışdır.

Bundan əlavə, Azərbaycan nümayəndə heyətinin və digər respublikaların təklifləri əsasında Əli bəy Hüseynzadə, Villi Banq, Mustafa Quliyev, akademik Nikolay Marr, Anatoli Lunaçarski və Vilhelm Tomsen Qurultayın Rəyasət Heyətinə fəxri üzv seçilmişdir. İştirakçıların müxtəlif coğrafi bölgələri və elmi məktəbləri təmsil etməsi, məruzələrin elmi-metodoloji zənginliyi, eləcə də etnoqrafiya, dilçilik və tarixşünaslıq sahələrində multidissiplinar yanaşmaların tətbiqi Qurultayı XX əsr Azərbaycan elmi-mədəni həyatının ən parlaq və yaddaqalan hadisələrindən birinə çevirmişdir.

**59 çıxışın nə müəllif yazıları, nə də tam stenoqrafik mətnləri...**

Təəssüf ki, stenoqramda adı çəkilən 59 çıxışın nə müəllif əlyazmaları, nə də tam stenoqrafik mətnləri bu günədək aşkar edilməmişdir.

Xalid Səid Xocayev, Nemət Hakimov və Həbibulla Habitov kimi nümayəndələrin çıxış mətnləri nə Milli Arxiv İdarəsində, nə də Əlyazmalar İnstitutunun materialları sırasında yoxdur. Ehtimal edilir ki, bu materiallar ya şəxsi arxivlərdə saxlanılır, ya da 1930-cu illərin repressiyaları zamanı məhv edilmiş əlyazmalar arasında olmuşdur. Ümid edilir ki, Qurultayın 100 illik yubileyi ərəfəsində bu qiymətli materialların heç olmasa bir hissəsi aşkarlanaraq elmi ictimaiyyətə təqdim ediləcəkdir.

İclasda SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Musabəyovun təbrik nitqi ilə çıxış etməsi də Qurultayın mötəbərliyini bir daha təsdiqləyir. Qeyd etmək lazımdır ki, Qurultay məşhur türkoloq V.V.Radlovun və İsmayıl bəy Qaspıralının xatirəsinə həsr edilmişdir. Akademik Vasili Bartold, Mehmet Fuad Köprülüzadə, Əli bəy Hüseynzadə, Aqafangel Krımski, Nikolay Poppe, Nikolay Aşmarin və Sergey Malov kimi tanınmış türkoloq və şərqşünasların iştirakı da bu elmi toplantının yüksək statusunu və nüfuzunu göstərirdi.

Qurultayda çıxış edən alimlər yalnız öz sahələrinin spesifik problemlərinə toxunmaqla kifayətlənməmiş, həm də iştirakçıları türkoloji tədqiqatların metodologiyası, elmi terminologiyanın formalaşdırılması, müqayisəli dilçilik və coğrafi-etnoqrafik yanaşmalar barədə düşünməyə sövq etmişlər. Bu məruzələr nəticəsində geniş fikir mübadiləsi aparılmış, müxtəlif türk xalqlarının dil və mədəniyyət xüsusiyyətlərinin öyrənilməsində yeni elmi perspektivlər müəyyənləşdirilmişdir.

Qeyd edilməlidir ki, Birinci Türkoloji Qurultayın qəbul etdiyi qərarlar arasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya və digər əlaqəli məsələlər xüsusi əhəmiyyət kəsb edirdi. Bu problemlər yalnız XX əsr üçün deyil, müasir dövrdə də türkologiyanın və türk xalqlarının mədəni inteqrasiyasının aktual istiqamətləri kimi qiymətləndirilir. Qurultay tərəfindən irəli sürülən ortaq yazı və dil prinsipləri, elmi terminologiyanın sistemləşdirilməsi və ədəbi dilin inkişafına dair tövsiyələr bu gün də strateji və elmi əhəmiyyətini qoruyub saxlayır.

**İlk hüquqi qiymət**

Azərbaycan XX əsrdə dövlət müstəqilliyini bərpa etdikdən sonra I Bakı Türkoloji Qurultaya dövlət səviyyəsində hüquqi qiymət verildi. Belə ki, 5 noyabr 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı və 2006-cı ildə Bakıda bu yubileyə həsr olunmuş Beynəlxalq konfrans təşkil edildi. Birinci Türkoloji Qurultayın 90 illik yubileyi Prezident İlham Əliyevin 18 fevral 2016-cı il Sərəncamı ilə dövlət səviyyəsində qeyd olundu. Sərəncamda xüsusi olaraq vurğulanırdı ki, XX yüzilliyin sonlarına doğru Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusu təsbit edilmiş, Türkoloji Qurultay tərəfindən irəli sürülmüş qərar və tövsiyələrin müasir şəraitdə həyata keçirilməsi üçün əlverişli zəmin yaranmışdır. Ötən dövr ərzində türkologiyaya dair yeni elmi konsepsiyalar formalaşmış, Azərbaycan dünya miqyasında nüfuzlu türkoloji araşdırma mərkəzlərindən biri kimi tanınmış və türk xalqlarının mədəni-mənəvi birliyinin nəzəri-elmi bünövrəsi yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam bu yubileyin dövlət səviyyəsində qeyd olunmasını nəzərdə tutur. Bu, təsadüfi deyil, əksinə tarixi ardıcıllığın və ideya varisliyinin təbii nəticəsidir. Çünki Birinci Türkoloji Qurultayda irəli sürülən bir çox ideyalar bu günün reallığında uğurla həyata keçirilir və Türk dünyasının yenidən vahid ailə kimi formalaşması istiqamətində mühüm və diqqətəlayiq nailiyyətlər əldə olunub.

Bu sərəncam Qurultayın tarixi və elmi əhəmiyyətini daha da möhkəmləndirir, türkologiya elminin inkişafına, türk xalqlarının mədəni-mənəvi irsinin qorunması və təbliğinə dövlət səviyyəsində dəstək göstərir, eyni zamanda Qurultayın irsinin müasir elmi mühitdə aktual və əhəmiyyətli olmasını təmin edir.

Sərəncamda xüsusi olaraq qeyd olunur ki, Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, Türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Türk dövlətləri arasında qardaşlıq və qarşılıqlı etimada əsaslanan müttəfiqlik münasibətləri möhkəmlənir, mədəni əməkdaşlıq əlaqələri isə getdikcə daha da dərinləşir. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd olunması ilə bağlı çağırışın yer alması da bu prosesin bariz göstəricisidir.

Bütün bu qeyd olunanlar və qeyd olunmayan digər önəmli məsələlər bizi Birinci Türkoloji Qurultayı başqa bir aspektdən də araşdırmağa sövq etmişdir. Məhz buna görə, bu tarixi hadisənin arxa planı və onun davamı da diqqətdən kənarda qalmamalıdır.

**Sovet rejiminin repressiya qurbanları**

Qurultay nə qədər elmi-intellektual zirvə idisə, onun ardınca baş verən hadisələr bir o qədər faciəvi olmuşdur. Tədbirdə iştirak etmiş, Türk dünyasının gələcəyi naminə çalışan bir çox ziyalı, alim və mütəfəkkir sonrakı illərdə totalitar sovet rejiminin repressiyalarına məruz qalmış, edam, sürgün və susdurma siyasətinin qurbanına çevrilmişdir. Onların bəziləri fiziki məhvə, bəziləri isə mənəvi təcridə düçar olmuş, əsərləri yasaqlanmış, əlyazmaları və kitabları məhv edilmiş, adları uzun illər tarixdən silinmişdir.

Bu proses bütövlükdə türk xalqlarının intellektual inkişafına, milli yaddaşına və mədəni irsinə ağır zərbə vurmuşdur. Birinci Türkoloji Qurultayın ideyaları, elmi baxışları və gələcək layihələri uzun müddət arxa plana atılmış, onların gerçəkləşməsi onilliklər boyu yubadılmışdır. Bu da Qurultayın təkcə elmi deyil, həm də siyasi və ideoloji baxımdan nə qədər mühüm və həssas bir hadisə olduğunu sübut edir. Bu gün həmin tarixi hadisəyə qayıdarkən yalnız onun nailiyyətlərini deyil, həm də bu nailiyyətlərin müqabilində baş verən acı təcrübələri unutmamalı, intellektual yüksəlişin qorunması və davam etdirilməsi üçün güclü hüquqi və ictimai zəmin yaratmalıyıq.

XX əsrin sonlarında Sovet İttifaqının süqutundan sonra türk dünyasında yenidən intellektual reaktivasiya yaşandı. Müstəqil türk dövlətləri formalaşdı, təhsil və elmi institutlar yenidən quruldu və türk dünyasında ortaq elmi məkan ideyası yenidən gündəmə gəldi. Bu yeni kontekstdə, Birinci Türkoloji Qurultayın 1926-cı ildə səsləndirdiyi ideyalar yenidən aktuallaşdı. 100 il sonra, Türk Dövlətləri Təşkilatının dəstəyi və Beynəlxalq Türk Akademiyası ilə Türk Dil Qurumunun nəzdində fəaliyyət göstərən Ortaq Əlifba Komissiyasının fəaliyyəti nəticəsində Türk dünyasında ortaq əlifba qəbul edildi. Bu, Qurultayın 100 illiyinə də töhfə verdi.

**Ortaq türk əlifbası ilə nəşr edilən ilk kitablar**

Yuxarıda qeyd olunan siyasətin məntiqi davamı olaraq ortaq türk əlifbası ilə nəşr edilən ilk kitablar Türk dünyasında bu problemin həlli istiqamətində atılmış uğurlu addımlar kimi qiymətləndirilə bilər. Ortaq əlifba ilə çap olunmuş ilk kitablar arasında Türk Akademiyası tərəfindən nəşr edilən Abay Kunanbayın "Qara sözlər" və Çingiz Aytmatovun "Ağ gəmi" əsərləri yer alır. Bu əsərlərin təqdimatları Qazaxıstan və Qırğızıstanda keçirildi və Türk Dövlətləri Təşkilatının zirvə toplantısında iştirakçılara hədiyyə edildi.




## Qarabağ Universitetindən türkoloji tədqiqatlara dəyərli töhfə

**Qarabağ Universiteti Elm şöbəsinin müdiri filologiya elmləri doktoru Elçin İbrahimovun "Birinci Türkoloji Qurultayda ortaq əlifba, imla və ədəbi dil məsələləri" monoqrafiyası nəşr olunub.**

AZƏRTAC xəbər verir ki, universitetin Elmi şurasının qərarı ilə nəşr edilən kitab 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın yüzilliyinə həsr olunub. Qurultay XX əsrin əvvəllərində Türk dünyasında milli-mədəni inteqrasiyanın və elmi əməkdaşlığın əsasını qoymuş, ortaq dil və yazı birliyinin formalaşdırılması istiqamətində vacib addımlar atmışdır.

Monoqrafiyada Qurultayın əsas mövzularından olan ortaq əlifba, imla və ədəbi dil məsələləri tarixi mənbələr və müasir elmi yanaşmalar əsasında təhlil edilir. Əlifba islahatları, ərəb və Kiril qrafikasından latın əlifbasına keçid təşəbbüsləri, yazı birliyinin yaradılması istiqamətində aparılan müzakirələr hərtərəfli təqdim edilir.

Kitabda, həmçinin ortaq əlifba ideyasının müxtəlif dövrlərdə siyasi, ideoloji və mədəni çalarlarla inkişafı, bu gün Türk dünyasında cərəyan edən inteqrasiya proseslərindəki rolu diqqət mərkəzində saxlanılır. Qurultay iştirakçılarının çıxışları və qəbul olunan qərarların sonrakı illərdə türk dillərinə təsiri konkret faktlarla göstərilir. Beləliklə, monoqrafiya yalnız tarixi konteksti əhatə etmir, həm də ortaq əlifba məsələsinin mürəkkəbliyini və bu gün də aktual olduğunu vurğulayır.

Nəşrin elmi redaktoru filologiya elmləri doktoru, professor Vilayət Quliyev, nəşrə məsul Milli İrsi Mədəni Tarixi Araşdırmalar yayımlarının direktoru Əsəd Aslanoğlu, redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Babayeva, rəyçiləri isə filologiya üzrə fəlsəfə doktoru, professor Ədalət Tahirzadə, professor Ahmet Buran, tənqidçi, publisist Azər Turan və filologiya elmləri doktoru, dosent Əzizağa Nəcəfovdur.

Bu baxımdan, Birinci Türkoloji Qurultayın 100 illiyi təkcə yubiley deyil, Türk Dünyasında elmi birlik ideyasının tarixi bir mərhələsinin təntənəsidir. 1926-cı ildəki Qurultayı yalnız keçmişin hadisəsi kimi qiymətləndirmək kifayət deyil; bu hadisə müasir türkoloji tədqiqatlarda, tədris metodikasında, ümumtürk elm və mədəniyyət əlaqələrində öz əksini tapmışdır. 100 illik perspektiv göstərir ki, elmi birlik yalnız ideya deyil, konkret praktik fəaliyyətin məhsulu olmuş və türk dünyasında uzunmüddətli intellektual prosesə çevrilmişdir.

Birinci Türkoloji Qurultay Türk Dünyasının elmi həyatında dönüş nöqtəsi olmuşdur. O, yalnız əlifba və dil məsələsi ilə məhdudlaşmır, həm də elmi birlik, kollektiv qərarvermə və metodoloji vahidlik ideyalarının formalaşması baxımından tarixi əhəmiyyət kəsb edir. 100 illik yubiley təntənəsi də göstərir ki, elmi birliyin ideyası keçmişdə başlamış, indiki dövrdə inkişaf etmiş və gələcək üçün perspektiv yaratmışdır. Birinci Türkoloji Qurultay həm tarixi hadisə, həm də Türk Dünyasında elmi inteqrasiyanın davamlı təşəbbüsü kimi qiymətləndirilə bilər.



**XXI** əsrdə informasiya texnologiyalarının sürətli inkişafı, avtomatlaşdırma və rəqəmsal transformasiya əmək bazarını kökündən dəyişir. Bu dəyişikliklər yalnız yeni peşələr yaratmır, həm də mövcud peşələrin sürətlə transformasiyasını tələb edir.

"Azərbaycan müəllimi"nin araşdırmasına əsasən, belə bir şəraitdə ənənəvi "formal təhsil – iş həyatı – pensiya" modeli kifayət etmir; daha çox "ömürboyu təhsil" (lifelong learning) modelinə ehtiyac yaranır. Bu model fərdin həyatının bütün mərhələlərində bilik və bacarıqlarını davamlı şəkildə yenilənməsini nəzərdə tutur.

Bu yanaşma həm fərdi fürsətləri artırır, həm də ölkələrin rəqabət qabiliyyətini və iqtisadi dayanıqlığını möhkəmləndirir. Belə ki, yüksək səviyyəli bacarıqlara malik işçi qüvvəsi daha innovativ olur və texnoloji dəyişikliklərə daha tez uyğunlaşa bilir. Ömürboyu təhsilə investisiyalar bir çox ölkədə sosial və iqtisadi siyasətlərin mərkəzində yer alır və bu, qlobal miqyasda artan bir trenddir.

**Ömürboyu təhsilə investisiyalar bir çox ölkədə sosial və iqtisadi siyasətlərin mərkəzində yer alır və bu, qlobal miqyasda artan bir trenddir.**

**UNESCO da vurğulayır ki, ömürboyu təhsil sistemləri yalnız fərdlər üçün deyil, bütövlükdə cəmiyyət üçün əhəmiyyətlidir. Təhsilə investisiya edən ölkələr daha inklüziv və dayanıqlı sosial sistemlər yaradırlar.**

**Ölkələr ömürboyu təhsil sisteminə investisiya etməklə sosial və iqtisadi dayanıqlığı gücləndirirlər, bu, təkcə dövlət büdcəsinin məsrəfi deyil, uzunmüddətli gəlir mənbəyidir.**

**Ömürboyu təhsil yalnız fərdlərin karyera imkanlarını artırmır, həm də ölkələrin rəqabət qabiliyyətini, sosial ədaləti və ümumi yaşayış səviyyəsini yüksəldir.**

# Ömürboyu təhsilə investisiya:

# Ölkələr, siyasətlər və gələcəyə baxış

## Ömürboyu təhsil niyə əhəmiyyətlidir?

Ömürboyu təhsil, sadəcə peşə kurslarını tamamlamadan ibarət deyil, bu, bütün həyat boyu davam edən bilik və bacarıqların yenilənməsi prosesidir. Bu, üç əsas sahəni əhatə edir:

***Formal təhsil:*** məktəblər, universitetlər və rəsmi sertifikatlaşma proqramları.

***Qeyri-formal təhsil:*** kurslar, əmək bazarında tələb olunan xüsusi bacarıqlar.

***İnformal öyrənmə:*** həyat təcrübəsi, onlayn resurslar və şəxsi təşəbbüslər.

Bu yanaşma xüsusilə iqtisadi transformasiya və əmək bazarında dinamik dəyişikliklər dövründə kritik əhəmiyyət daşıyır. İnsanların səriştələrinin aktual olması iqtisadi artımın və sosial inklüzivliyin mühüm şərtidir. UNESCO da vurğulayır ki, ömürboyu təhsil sistemləri yalnız fərdlər üçün deyil, bütövlükdə cəmiyyət üçün əhəmiyyətlidir. Təhsilə investisiya edən ölkələr daha inklüziv və dayanıqlı sosial sistemlər yaradırlar.



## OECD ölkələri təhsilə nə qədər xərcləyir?

OECD ölkələrinin təhsilə ümumi xərclərini müqayisə edərkən ÜDM-in təhsil sektoruna ayrılan hissəsinə baxılır. Bu göstərici dövlət prioritetlərini və təhsil sisteminə qoyulan ümumi resursların miqdarını izah edir. OECD-nin Education at a Glance 2025 hesabatına görə, OECD ölkələrində təhsilə dövlət xərcləri ÜDM-in orta hesabla təxminən 4.7% səviyyəsindədir. Bu göstərici ölkələr arasında fərqlidir, bəzi ölkələrdə bu nisbət 6-7%-ə qədər yüksəlir. Təhsil xərcləri yüksək olan ölkələrə Skandinaviya ölkələri (Finlandiya, İsveç, Danimarka və s.) daxildir. Bu ölkələr yalnız ilk təhsil sistemlərində deyil, həm də peşə təhsili və böyüklərin təlimi üçün böyük resurslar ayırırlar. Bu investisiya yalnız məktəb və universitetlərlə məhdudlaşmır, həm də peşə və ixtisasartırma proqramlarında geniş şəkildə yer alır.

## OECD ölkələri ömürboyu təhsilə nə qədər xərcləyir?

Təhsilə vəsait ayırmaq yetərli deyil, bu investisiyalar nəticə verməlidir. Bu səbəbdən ölkələrin yetkin əhalinin təlimlərə qatılması səviyyəsi də mühüm göstəricidir. OECD-nin hesabatları göstərir ki, yetkinlərin təhsilə təsirli şəkildə qatılması ölkələr arasında böyük fərqlər göstərir. Adətən, ömürboyu təhsil iştirakını "formal və qeyri-formal təlimlərdə iştirak" ilə ölçürlər. Məsələn, son məlumatlara görə, OECD ölkələrində yetkinlərin təhsilə qatılma səviyyəsi orta hesabla təxminən 40-50% ətrafındadır, bəzi ölkələrdə isə bu göstərici 60%-ə qədər çıxır. Eyni zamanda, bəzi ölkələrdə bu göstərici xeyli aşağı düşə bilir. Bu fərqlər yalnız ölkənin təhsil investisiyası ilə deyil, həm də mədəniyyət, işçi bazarının strukturu, təlim fürsətlərinə çıxış kimi bir çox amillərlə bağlıdır.

**Finland, Norveç, Danimarka, İsveç** kimi ölkələr həm təhsilə dövlət xərclərini ÜDM-ə görə daha yüksək səviyyədə saxlayır, həm də yetkinlərin ömürboyu təhsildə iştirakını yüksək səviyyədə təmin edirlər (təxminən 50%-dən yuxarı).

**ABŞ və Kanada** kimi ingilis dilli ölkələr də orta-yuxarı səviyyədə təhsilə vəsait xərcləyir və 50%-ə yaxın yetkin təlimdə iştirak göstəricisi ilə fərqlənirlər.

**Yaponiya, Koreya və bir sıra Mərkəzi-Şərqi Avropa ölkələri** (Polşa, Xorvatiya) aşağı və ya orta iştirak göstəricilərinə malikdir, bu da ömürboyu təhsil sistemlərinin daha zəif inkişaf etdiyini göstərə bilər. Bu müqayisə göstərir ki, təhsilə yüksək investisiya edən ölkələr eyni zamanda yetkinlərin təlimə qatılmasını da daha yüksək səviyyədə təmin edə bilir ki, bu da daha çevik və innovativ əmək bazarının göstəricisi sayılır.

## Təhsilə yatırım davamlı inkişafın təməli kimi

Ömürboyu təhsil artıq təkcə konsept deyil, gözlə görünən iqtisadi və sosial zərurət halına gəlib. Rəqəmsal dövrdə bacarıq və səriştə ən dəyərli sərmayədir və buna görə də:

- Təhsilə ÜDM-də yüksək pay ayıran ölkələr ümumilikdə daha çevik, innovativ və inklüziv olur.
- Yetkinlərin təlimdə iştirakı iqtisadi sabitliyin və sosial rifahın açar göstəricisidir.
- Müxtəlif siyasətlər və təşviq mexanizmləri bu sistemin effektivliyini daha da artırır.

Ömürboyu təhsil yalnız fərdlərin karyera imkanlarını artırmır, həm də ölkələrin rəqabət qabiliyyətini, sosial ədaləti və ümumi yaşayış səviyyəsini yüksəldir.

Ömürboyu təhsil artıq sosial seçim deyil, iqtisadi zərurətdir. Qlobal təcrübə göstərir ki, təhsilə yüksək və davamlı investisiya ayıran ölkələr uzunmüddətli perspektivdə daha innovativ, dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyat qururlar. Gələcəkdə süni intellekt və rəqəmsal transformasiya fonunda ömürboyu təhsilə ayrılan vəsaitin daha da artacağı gözlənilir.

## Niyə bəzi ölkələr daha uğurlu olur?

Yüksək yetkin təhsili göstəricisi yalnız maliyyə yatırımı ilə izah olunmur. Bu sferasını gücləndirən əsas amillər:

*Siyasət və stimullar* - bir çox ölkələrdə təkcə maliyyə vəsaiti deyil, həm də təlimə motivasiya və təşviq mexanizmləri mövcuddur:

- İşçilər üçün təhsil məzuniyyəti hüquqları;
- Dövlət tərəfindən subsidiyalı kurslar və sertifikat proqramları;
- İşəgötürən tərəfindən təlim dəstəyi. Bu mexanizmlər ömürboyu təhsili yalnız xərc ki mi deyil, investisiya kimi görən sistemləri yaradır.

*İşçi bazarının tələbləri* - Rəqəmsal səriştələr, süni intellekt və texnologiyanın sürətli inkişafı əmək bazarında çevikliyi tələb edir. Təhsildə yatırımlar yalnız ilk təhsil dövrünə yönələn modeldən çıxaraq həyat boyu öyrənmə modelinə keçid edir. Bu isə iqtisadi artımı stimullaşdırır və işsizlik riskini azaldır.

## Ömürboyu təhsilin sosial və iqtisadi effektləri

Ömürboyu təhsilə investisiya yalnız fərd üçün deyil, cəmiyyət üçün də bir çox üstünlüklər yaradır:

***İqtisadi effekt:***

- Artan məhsuldarlıq və innovasiya;
- Yeni iş yerlərinin yaranması və işçi bazarında adaptasiya;
- Vergi gəlirlərinin artması və sosial dəstək xərclərinin azalması.

***Sosial effekt:***

- Əhalinin sosial inklüzivliyi - Daha da bərabər imkanlar:
- Yaşlanan əhali ilə bağlı risklərin azaldılması.

Belə ki, ölkələr ömürboyu təhsil sisteminə investisiya etməklə sosial və iqtisadi dayanıqlılığı gücləndirirlər, bu, təkcə dövlət büdcəsinin məsrəfi deyil, uzunmüddətli gəlir mənbəyidir.

## OECD və MDB - regional müqayisə

**OECD ölkələri ilə yanaşı, MDB ölkələrində də müxtəlif təhsil investisiyası səviyyələri var. Bu regionda yetkinlərin təlimdə iştirakı barədə konkret, beynəlxalq səviyyədə uyğunlaşdırılmış məlumatlar məhduddur. MDB ölkələri OECD ilə eyni standartlarda ömürboyu təhsil statistikasını hələ tam formalaşdırmayıblar, bu da müqayisədə müəyyən çətinlik yaradır.Bu vəziyyət regionda ömürboyu təhsilin inkişafı üçün potensial imkanların olduğunu göstərir: dövlət siyasətləri, özəl sektor təşəbbüsləri və beynəlxalq əməkdaşlıq vasitəsilə bu sahə gücləndirilə bilər.**



## Qlobal çağırışlar və gələcək perspektivlər

OECD və UNESCO kimi beynəlxalq qurumlar vurğulayır ki, ömürboyu təhsilə olan investisiyalar hələ də kifayət etmir və bir sıra çağırışlarla üzləşir. Məsələn, UNESCO qeyd edir ki, bir çox ölkələrdə yetkinlərin yalnız kiçik hissəsi təhsil imkanlarından faydalanır və bu, sosial bərabərsizlikləri daha da dərinləşdirə bilər. Bununla yanaşı, demoqrafik dəyişikliklər (yaşlanan əhali), texnoloji sürət və əmək bazarının transformasiyası bu sahənin daha çox investisiya və innovasiya tələb etdiyini göstərir.

Səhifəni hazırladı: Oruc MUSTAFAYEV



# Qarabağ Universitetinin tələbəsi qrant müsabiqəsinin qalibi olub

**Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin Tarix ixtisası üzrə II kurs tələbəsi, Azıx arxeoloji araşdırma və analiz laboratoriyasının laborantı, Azərbaycan-Almaniya Azıx beynəlxalq paleolit ekspedisiyasının üzvü İlkin Rzayev Azad Mirzəcanzadə İnkişaf Proqramı (AMİP) çərçivəsində qrant müsabiqəsinin qaliblərindən biri olub.**

Təqdim olunan “Paleo-Qarabağ” layihəsi, Azıx beynəlxalq paleolit ekspedisiyasının həmrəhbərləri Ə.Babazadə və J.Marreirosun mentorluğunda Qarabağ regionunun Paleolit dövrü arxeoloji abidələrinin müasir rəqəmsal texnologiyalar vasitəsilə sənədləşdirilməsi və qorunmasını strategiyasının hazırlanması həyata keçirəcək.

Layihə çərçivəsində 3D modelləşdirmə və QGIS əsaslı məkan analizi tətbiq edilərək abidələrin virtual mühitdə yenidən qurulmasını və sistemli şəkildə xəritələşdirilməsini planlamaqdadır.

Layihənin məqsədi yalnız mövcud abidələrin rəqəmsal bazalarda modellərinin yaradılması deyil, eyni zamanda, yeni potensial arxeoloji abidələrin ilkin identifikasiyası, elmi məlumat bazasının formalaşdırılması və Qarabağın Paleolit irsinin beynəlxalq elmi bazalarda referans olaraq yer almasına tövsiyə verməkdir.

Qeyd edək ki, Azərbaycan-Almaniya Azıx beynəlxalq paleolit ekspedisiyası AMEA Arxeologiya və Antropologiya İnstitutu ilə LEİZA (Leibniz-Zentrum für Archaologie) İnstitutu arasında bağlanmış memorandum əsasında 2024-cü ildən etibarən Azıx mağarasında tədqiqatlar aparmaqdadır.




## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 494 **Sifariş:** 286

**Məsul növbətçi:** S.Kərimova



**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə**

**ELAN EDİR:**

*Dizayn və dekorativ-tətbiqi sənət*
*Baş müəllim 1 yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**


# ADNSU-nun 46 tələbəsi Qazaxıstan və Özbəkistanda təhsil alacaq




**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) beynəlmiləlləşmə strategiyası çərçivəsində 2025/2026-cı tədris ilinin yaz semestrində universitetin 46 tələbəsi akademik mübadilə proqramları çərçivəsində Qazaxıstan və Özbəkistanın nüfuzlu universitetlərində bir semestr təhsil almaq imkanı qazanıb.**

Mübadilə proqramı çərçivəsində hazırda 29 tələbə Qazaxıstanın Satbayev Universitetində, 14 tələbə Yessenov Universitetində, 3 tələbə isə Daşkənd Dövlət Texniki Universitetində təhsillərini davam etdirir.

Qazaxıstana səfər çərçivəsində Əcnəbi tələbələrlə iş şöbəsinin müdiri Səbinə Əliyeva tərəfdaş universitetlərdə bir sıra görüşlər keçirib. Qazaxıstanın Satbayev Universitetinin rəhbərliyi ilə baş tutan görüşdə iki ali təhsil müəssisəsi arasında əməkdaşlığın perspektivləri, tələbə və professor-müəllim heyəti mübadiləsinin genişləndirilməsi, elmi tədqiqatların birgə icrası və ikili diplom imkanları müzakirə olunub.

Satbayev Universiteti tərəfindən ADNSU tələbələri üçün xüsusi qarşılanma mərasimi təşkil edilib, tələbələr universitetin akademik və sosial infrastrukturu ilə yaxından tanış olublar.

Səfər çərçivəsində S.Əliyeva Almatı Menecment Universitetində (AlmaU) də olub və mümkün əməkdaşlıq istiqamətləri üzrə ilkin müzakirələr aparılıb. Görüş zamanı gələcəkdə birgə layihələrin və akademik əlaqələrin qurulması imkanları nəzərdən keçirilib.

Bunlarla yanaşı, ADNSU və Satbayev Universitetinin professor-müəllim heyətinin birgə əməkdaşlığı nəticəsində “Metrologiya” adlı elmi kitab nəşr olunub. Sözügedən nəşr iki universitet arasında elmi əlaqələrin dərinləşməsinin və akademik tərəfdaşlığın praktik nəticəsi kimi qiymətləndirilir.

Qeyd edək ki, bu göstəricilər ADNSU-nun beynəlxalq tərəfdaşlıq şəbəkəsinin genişləndiyini və tələbələr üçün yaradılan real akademik mobillik imkanlarının artdığını göstərir.

# Etibarsız sayılır

**Sabirabad şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Sadıqlı Əli Fikrət oğluna verilmiş B-552842 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Gəgəli kənd tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş Mursaliyev Mahir Əlmürsəl oğluna verilmiş A-264160 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Gəgəli kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Quliyeva Nurxanım Elxan qızına verilmiş A-140101 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 295 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Dadaşov Məhəmməd Adil oğluna verilmiş E-280218 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş İbrahimov Vüsal Yasər oğluna verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**“Ankara məktəbi” məktəb-liseyi** 2008-ci ildə bitirmiş Bayramlı Etibar Ramiz oğluna verilmiş B-531789 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Xasıyev Rəşad İqbal oğluna verilmiş B-127011 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2010-cu ildə Sadıxova Günel Azər qızına verilmiş B-171122 nömrəli bakalavr diplomu və diploma əlavə, 2014-cü ildə verilmiş MNB-029677 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2016-cı ildə Mənsurova Sevinc Zakir qızına verilmiş A-097162 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Kakalos kənd tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Əliyev Zamik Sayad oğluna verilmiş 631189 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 9 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Atamaliyeva (Ömərova) Həcər Arazxan qızına verilmiş 526309 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 4 nömrəli tam orta ümumtəhsil məktəbi 1996-cı ildə bitirmiş Məmmədov Amil Sərhəng oğluna verilmiş A-032081 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təzə Alvadı kənd 1 nömrəli tam orta məktəbin VIII sinfini 1985-ci ildə bitirmiş Hacıyev Zakir Xankişi oğluna verilmiş 811914 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təzəkənd kənd tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Yəhya Seyfulla Əzizağa oğluna verilmiş A-566339 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Heydərova Səfayət Abuzər qızına verilmiş A-091848 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 96 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əhədli Kənan Tahir oğluna verilmiş A-314057 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Həmidova Şəfa Dövlət qızına verilmiş B-331360 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2020-ci ildə Əhmədov Nail Carulla oğluna verilmiş AT-006511 nömrəli əsas (baza ali) tibb təhsili diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Səncərədi kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Qənizadə Səriyyə Üzeyir qızına verilmiş A-159727 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Daşüz camışçılıq Sovxozu tam orta məktəbi 1996-cı ildə bitirmiş Quliyeva Fəxriyyə Telman qızına verilmiş A-083570 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** İkinci Yeddioymaq kənd tam orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Əzizova İradə Zadil qızına verilmiş 303749 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş İsmayılov Firudun Paşa oğluna verilmiş A-002594 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 316 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Cəfərova Aytac Fərhad qızına verilmiş E-014490 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Quliyeva (Əzizova) Aynurə İlyas qızına verilmiş 412150 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Qaravəlli kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Əsədov Vüqar Eynulla oğluna verilmiş 547873 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 54 nömrəli tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Musayeva Nailə Ucabəy qızına verilmiş A-586728 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Cabbarov Kamran Asəf oğluna verilmiş E-670533 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Paşabəyli kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Vəliyeva Salatın Mustafa qızına verilmiş B-056509 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Əliyeva Mənsurə Şəmsəddin qızına verilmiş A-016265 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Dəmirçi kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Pənahov Anar Əli oğluna verilmiş A-748780 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Həşimova Nuranə Nofəl qızına verilmiş A-421629 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Böyük Qışlaq kənd tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Məmmədov Cavidan Hüseyn oğluna verilmiş E-822376 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Böyük Qışlaq kənd tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Məmmədov Məhərrəm Elxan oğluna verilmiş E-246797 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şıxəkəran kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Əlizadə Kənan Ənvər oğluna verilmiş A-230644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Rzayev Sadiq İlham oğluna verilmiş E-291345 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji** İnstitutu tərəfindən 1989-cu ildə Məmmədova Güllər Həsən qızına verilmiş TB-I-089352 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2025-ci ildə Abdullayeva Tamara Zaur qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Quluzadə (Hənifəyeva) Nuran Ariz qızına verilmiş A-401241 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 313 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Həbilova Vəfa Xanım Şahbaz qızına verilmiş E-435881 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.